UOT:78

# V.A.MOTSARTIN KLAVİR YARADICILIĞI VƏ MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ ONDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ VƏ YOLLARI

***Həsənova Saidə Zahid qızı***
***Gəncə Dövlət Universiteti***
***saida_nika@yahoo.com***

**Xülasə:** *Görkəmli Avstriya bəstəkarı, dirijoru, Vyana klassik məktəbinin görkəmli nümayəndəsi Volfqanq Amadey Motsart (1756-1791 )uşaq yaşlarından özünün dahiliyi ilə, uşaq səmimiliyi, parlaqlığı ilə seçilən əsərləri ilə dünya musiqi mədəniyyətinin ən dahi bəstəkarı hesab olunur.*

*V.A.Motsartın əsərləri, o cümlədən klavir sonataları və konsertlərinin insanda əqli fəaliyyəti inkişaf etdirdiyi, insana məntiqli düşünməyinə kömək etdiyi elm tərəfindən təsdiq olunmuşdur. Bu baxımdan V.A.Motsartın klavir musiqisinin tədqiqi və tədrisi, məktəblilərin musiqi tərbiyəsində istifadəsi aktuallığı ilə diqqəti cəlb edən problemlərdəndir.*

**Açar sözləri:** bəstəkar, yaradıcılıq, musiqi, klavir, sonata
**Ключевые слова:** композитор, творчество, музыка, клавир, соната
**Key words:** composer, creation, music, clavier, sonata

V.A.Motsart 1756-cı ildə musiqiçi ailəsində anadan olmuşdur. Atası Leopold Motsart Zalsburqun keçmiş saray musiqiçi arxiyepiskopu idi və istedadlı oğluna mükəmməl musiqi təhsil vermiş, ona klavesin, orqan və skripkada ifa etməyi öyrətmişdi. Motsartı tanıyan hər kəs, hətta erkən uşaqlıq yaşlarından bu balaca oğlana möcüzə kimi baxır, onu sehrbaz adlandırırdılar.

Motsartın yaradıcılığında klavir (fortepiano) əsərləri mühüm yer tutur. Əməkdar incəsənət xadimi, professor Ş.Həsənova "Musiqi tarixindən mühazirələr" adlı kitabında yazır: "Kiçik yaşlarından mahir klavir ifaçısı kimi bütün Avropada məşhurlaşan Motsart bu alət üçün sonatalar, rondolar, variasiyalar, fantaziyalar bəstələmişdir. Bəstəkarın 4 əllə çalmaq üçün və 2 fortepiano üçün yaratdığı sonata və pyeslər isə fortepiano duetinin erkən nümunələrinə aiddir. Onun fortepiano üçün 19 sonatası vardır" [5.18].

Klavir üçün sonatalara Motsart 19 yaşında müraciət etmişdir – o vaxtlar artıq Motsart virtuoz-pianoçu kimi tanınmışdır. Uşaq yaşlarından Motsart öz improvizə qabiliyyəti ilə hamını təəcübləndiridi və təsadüfi deyil ki, ona yaxın olan variasiya janrı sonatalarında da öz əksini tapmışdır.

Motsart yaşadığı dövrdə sonatalar əsl konsert janrı sayılmırdı. Motsart adətən acıq konsertlərdə, akademiyalarda variasiya və fantaziyalar ifa edirdi. Sonataları isə çoxsaylı şagirdləri üçün, əsasən evdə musiqi ilə məşğul olmaq üçün yazırdı. Lakin müasir dövrdə bu janr pedaqoji repertuarın çərçivəsindən çıxmış və konsert salonlarında da geniş ifa olunur.

Motsart tez-tez öz sonatalarını çətin adlandırırdı. O, yalnız bir sonatasının "Başlayanlar üçün kiçik klavir sonata" (k.545) adı ilə ifa üçün asan olduğunu vurğulamışdır, Bəstəkar, sonatalarının əsas çətinliyini ifa texnikasında deyil, onun ifadəliyində görürdü. V.A.Motsartın sonataları ilk baxışda ifa üçün asan təəsürat bağışlasa da, bəstəkar musiqi parçalarını həm bəzəklərlə, həm polifonik naxışlarla zənginləşdirmiş, bu da ifaçı, virtuoz, interpretator üçün bir imtahan hesab edilə bilər.

Sevgili anasının xəstəliyi və ölümünün təsiri altında olan bəstəkar "lya minor sonatasında" (KV 310) və "do minor sonatasında" (KV 475) bizə "Uca Tanrı" dəqiqələrini bağışlayır. Bir müddətdən sonra Motsart "do minor sonatası"na "Fantaziya do minor" (KV 475) əsərini əlavə etmişdi və o, adətən sonatanın "uvertüra"sı kimi ifa olunurdu. Tamam başqa, "yerüstü", Motsart fransız mahnı mövzusunda sehrli variasiyalarla və finalda "Rondo alla turca" (məşhur "Türk marşı") ilə "Lya major sonatasında" (KV 331) özünü aydın göstərir.

Professor B.Qurbanov "Musiqi dünyasının unudulmazları" adlı kitabında belə yazır: "Motsart sonata janrının zəngin potensial imkanlarını üzə çıxarmış, bu musiqi janrının spesifik dilini yeni-yeni yaradıcılıq və ifadə-təsvir vasitələri ilə zənginləşdirə bilmişdir. Eyni zamanda bəstəkar bu sənət janrına ideya məzmun baxımdan da bir bütünlük gətirə bilmişdir. Motsartın bu sonataları içərisində forma və ideya-məzmun baxımdan seçilən və Azərbaycanda, Türkiyədə də geniş əks səda oyadan əsər olaraq "Lya major sonatası"nı xüsusi olaraq qeyd etmək lazımdır" [4.47].

"Lya major sonatası" – "Alla turca" (türk üslübunda) finalı ilə V.A.Motsartın ən məşhur fortepiano əsərləri sırasına daxildir. Sonata bəstəkarın Parisdə olduğu müddətdə yazılmışdır. Əsər yazılarkən bəstəkar parislilərin zövqünə güvənirdi. Buna görə də o, sonata deyil, daha çox süitaya bənzəyir. Üç hissənin hər biri eyni tonallıq – Lya majorda yazılmışdır və onların heç biri sonata formasında deyildir. Birinci hissə – mövzu və variasiyalar, ikinci hissə – Menuet və üçüncü hissə – türk üslubunda Rondodur. Birinci hissə (Andante grazioso) variasiyaların işıqlı və sakit, mahnı və rəqsvari mövzusu, yumşaq yırğalanan metroritmi ilə qədim italyan rəqsin xarakterinə yaxındır.

Birinci hissə: variasiyadır. Variasiyaların təzadlı müqayisəsinə üçüncü variasiyada majorun minorla əvəzlənməsini (lya minor), beşinci variasiyada tempin dəyişməsini (Adagio) və nəhayət, Allegro tempində yazılmış altıncı variasiyada metrin (6/8 əvəzinə 4/4) dəyişməsini qeyd etmək olar.

Sonatanın ikinci hissəsi – Menuetdir. Birinci hissə ilə eyni tonallıqda (Lya major) yazılmışdır və onun davamı kimi qəbul edilir.

Üçüncü hissə – Final (Rondo alla Turca),"Türk marşı" kimi məşhurdur. "Türk" hərbi marş janrı XVIII əsrdə geniş tanınmışdır. Bu janrın Avropa mədəniyyətinə nüfuz etməsi XVI–XVIII əsrlər boyunca Osmanlı Türkiyəsinin Avstriya ilə uzun müddətli müharibələri dövründə mümkün olmuşdur.

Rondo alla Turca mürəkkəb üçhissəli formada yazılmışdır. Hər hissəyə refrenin (təkrarlanan nəqarət) əlavə edilməsi ona rondo xüsusiyyətlərini verir. Final lya minorda başlayır və lya majorda bitir. Final lya minorda səslənən əsas rəqs mövzusunun təzadı üzərində qurulmuşdur.

Araşdırmalar nəticəsində məlum olub ki, Motsart kimi dahi bəstəkarın musiqisi uşaqların əksəriyyətinə müsbət təsir göstərir. Mütəxəssislər bildirirlər ki, musiqi alətində ifa edən uşaqların yaşıdları ilə müqayisədə yaddaşı nisbətən güclüdür, dərslərini daha yaxşı oxuyur və zəngin söz ehtiyatına sahib olur. Tək musiqinin üslubu deyil, onun ritm və tonallığı, hansı musiqi alətində, əsasən də fortepianoda ifa olunması mühüm haldır.

Hər bir musiqi alətinin səsi insanın orqanizminə müəyyən bir təsir göstərir. Lakin klassik musiqinin insanlar üzərində təsirləri təkcə bununla bitmir. Müasir dövrdə musiqi terapiyası mövcuddur ki, bu da somatik və psixi xəstəliklərdən əziyyət çəkənlərin müalicəsi və reabilitasiyasında mühüm vasitələrdən biri kimi tətbiq edilir. V.A.Motsartın əsərlərindən, sonatalarından musiqi terapiyasında geniş istifadə olunur. Tibdə "Motsartın effekti" terminini fransız həkimi Alfred Tomatis (1920-2001) ətraflı izah etmişdir.

Bütün dünyada ümumqəbulolunmuş haldır ki, Motsart kimi bəstəkarların əsərləri yalnız estetik zövq aşılamır, həmçinin insanları tərbiyələndirir, öyrədir, kamilləşdirir. Həyatın gözəlliyini açan, eyni zamanda, insanı kamilləşdirən Motsartın musiqisi mütərəqqi humanist meyllərə, özünəməxsus "dilə" malikdir. Bu musiqinin təsiri altında olan məktəblilərin mədəni, intellektual səviyyəsi yüksəlir. Professor S.Qurbanəliyeva "Şəxsiyyət və musiqi" adlı kitabında haqlı olaraq qeyd edir ki. "Elə bir mənəvi keyfiyyət, əxlaqi sifət yoxdur ki, onun tərbiyəsinə musiqi vasitəsilə təsir göstərmək mümkün olmasın" [3.71].

V.A.Motsartın sehrli musiqisi məktəbliyə həyatın gözəl cəhətlərini görməyə, dünyanın estetik gözəlliyini dərk etməyə kömək edir, uşaqların mənəvi aləmini hiss və duyğularla zənginləşdirir. Onun musiqisi insanların qarşısında "gözəllik, səadət, sevinc dünyası" açır.

Məktəblilərin estetik zövqünün tərbiyə edilməsində Motsartın klavir musiqini mühüm amil kimi qiymətləndirərək uşaqlarda musiqiyə yaradıcı münasibət hissini aşılamaq olar.

Mövzu baxımından ümumtəhsil məktəbləri üçün "Musiqi"dən məktəb dərslikləri və metodik vəsaitləri təhlili göstərir ki, musiqi dərslərinin dinlənilmə mərhələsində bəstəkarın əsərlərinin dinlənilməsi, yaradıcılığı haqqında məlumatların verilməsi nəzərdə tutulmuşdur.

Professor Dadaşova M. "Musiqi müəlliminin hazırlığının metodikası" adlı dərs vəsaitində yazır: "Əsərin daha dərindən başa düşülməsi üçün müəllim tələbəni hər hansı bir bəstəkarın həyatından götürülmüş faktlar, onun həyata olan baxışı ilə tanış edərək, onun yaşadığı dövr ilə yaradıcılığını xarakterizə edir və onun əsərlərini digər əsərlər – instrumental və simfonik əsərlərlə müqayisə edərək onlardakı bədii surətlərin oxşarlığını müəyyən etməklə, bu növ əsərlərin spesifik xüsusiyyətlərinin aşkar olunmasına təkan vermiş olur" [1. 246].

O.Rəcəbovun, N.Kazımovun, O.İmanovanın müəllifləri olduğu ümumtəhsil məktəblərinin 3-cü sinif üçün "Musiqi" fənni üzrə dərsliyin metodiki vəsaitində "Musiqidə rondo. Rondo və müxtəlif janrlar" adlı 9-cu mövzunun tədrisində V.A.Motsartın fortepiano üçün yazılmış "Rondo" əsərinin dinlənilməsi təklif olunur [8. 17]. Bu əsər vasitəsilə məktəblilərə rondo quruluşu haqqında məlumat verilir.

"Musiqi"dən məktəb kurikulumu əsasında musiqi dərsində problem vəziyyəti yaratmaq üçün "Motivasiya" mərhələsində V.A.Motsartın fortepiano aləti üçün yazılmış "Rondo" əsəri dinlənilir və suallarla sinfə müraciət olunur:

-Uşaqlar, dinlədiyiniz "Rondo" əsərində tez-tez təkrar olunan musiqi parçaları varmı?

-Təkrar olunan musiqi parçaları neçə dəfə səslənir?

Beyin həmləsi, diskussiya, Venn diqaramı kimi interaktiv təlim metodlarından istifadə edilərək müəllimin köməyi ilə şagirdlər suallara cavab verirlər. Tədqiqat sualı belə qoyulur: "Rondo" əsərində neçə təkrar olunan və neçə təkrar olunmayan musiqi parçaları var? Tədqiqatın aparılmasında sinif qruplara bölünür, 1-ci qrupa üzərində "A", 2-ci qrupa "B" və 3-cü qrupa "C" yazılmış iş vərəqləri paylanır və tapşırıq verilir: musiqini dinləyin, musiqidə təkrar olanda "A" vərəqini, təkrar olunmayan musiqi parçaları olanda isə "B" və "C" vərəqlərini qaldırın.

"İnformasiya mübadiləsi və müzakirəsi" mərhələsində məlum olur ki, "Rondo"da "refren" adlanan I hissənin 3 dəfə, xaraktercə refrendən fərqlənən "B" və "C" musiqi parçaların hərəsinin bir dəfə səsləndiyi müəyyənləşdirilir. Rondo quruluşu belə sxemlə göstərilir: ABACA

Yuxarıda qeyd etdiyimiz metodiki vəsaitin "Rondo və mahnılar" adlı 11-ci mövzusu daxilində V.A.Motsartın "Rondo" əsərinə müraciət olunur [8. 20]. Metodiki vəsaitə əsasən musiqi dərsinin "Motivasiya" mərhələsində problem vəziyyəti yaratmaq üçün əvvəlcə bəstəkarın "Rondo" əsəri dinlənilir, sonra "Üçüncülərik biz", "Biz qızlarıq", "Oğlanlarıq" mahnıları ABACA sxeminə uyğun xorla ifa olunur. Sinfə suallarla müraciət olunur:

- Dinlədiyiniz V.A.Motsartın "Rondo" əsəri ilə oxuduğunuz mahnı çələngi arasında hansı oxşar və fərqli cəhətləri var?

- Bu iki nümunədə refren neçə dəfə təkrar olunur?

Metodik vəsaitdə diskussiya, rəsm assosiasiyası, modelləşdirmə müasir iş üsullarından istifadə edilməsi təklif olunur. Yaxşı olardı ki, rondo və mahnı janrlarını müqayisə etmək üçün "Venn diaqramı" təlim metodundan da istifadə olunardı. Tədqiqat sualı belə qoyulur: Nəyə görə rondo janrında müxtəlif xarakterli musiqi nümünələrindən istifadə olunur? "Tədqiqatın aparılması" mərhələsində sinif "Qızlar" və "Oglanlar" qrupuna və refreni ifa edəcək qruplara bölünür, iş vərəqləri paylanılır.

Mövzu baxımından ümumtəhsil məktəbləri üçün "Musiqi"dən məktəb dərslikləri və metodik vəsaitlərin təhlili gstərir ki, son illərdə dərc olunmuş musiqi dərsliklərində V.A.Motsartın fortepiano üçün əsərlərinə kifayət qeder yer ayrılmamışdır. Yalnız

O.Rəcəbovun, N.Kazımovun, O.İmanovanın müəllifləri olduğu ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün “Musiqi” fənni üzrə (Bakı, 2018) dərslikdə və metodiki vəsaitdə V.A.Motsartın fortepiano üçün yazılmış “Rondo” əsərinə müraciət edilmişdir.

Məktəblilərin estetik zövqünün tərbiyə edilməsində Motsartın klavir musiqisini mühüm amil kimi qiymətləndirərək musiqi tərbiyəsi işini daha səmərəli təşkil etmək olar. Bu məqsədlə ümümtəhsil məktəbləri uçün musiqi dərsliklərində bəstəkarın əsərlərinə daha geniş yer verilməsi olduqca vacibdir. Bəstəkarın tanınmış pianoçular tərəfindən ifa edilən və tədris repertuarında geniş yer tutan, dəfələrlə nəşr olunan əsərlərindən Azərbaycan məktəblərində şagirdlərin musiqi tərbiyəsində geniş istifadə olunması məsələlərin öyrənilməsi müasir pedaqoji elmin qarşısında duran vacib vəzifələrdəndir.

***Ədəbiyyat***


1. Dadaşova M. Musiqi müəlliminin hazırlığının metodikası (dərs vəsaiti). Bakı, 2010.
2. Qasımova S., Zöhrabov R. Musiqi ədəbiyyatı. Bakı, 1980.
3. Qurbanəliyeva S. Şəxsiyyət və musiqi. Bakı, 2010.
4. Qurbanov B. Musiqi dünyasının unudulmazları. Bakı, 2015.
5. Həsənova Ş. Musiqi tarixindən mühazirələr. 1-ci hissə. Bakı, 2008.
6. Hüseynova Z. V.A.Motsartın həyat və yaradıcılığı. Bakı, 2017.
7. Rəcəbov O., Kazımov N., İmanova O. Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün Musiqi fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı, 2018.

**Saytoqrafiya:**

www.musiqi-dunya.az

www.kurikulum.az


## ЗНАЧЕНИЕ И СПОСОБЫ ИСПОЛЬЗОВАНИЯ ФОРТЕПИАННОЙ МУЗЫКИ В.А.МОЦАРТА В МУЗЫКАЛЬНОМ ВОСПИТАНИИ ШКОЛЬНИКОВ

***Гасанова Саида Захид кызы***

***Резюме***

В клавирном творчестве Моцарта особенно выделяются сонаты, вариации, рондо и фантазии, написанные в первой половине 80-х годов XVIII в. В этих произведениях Моцарт, творчески развивая традиции Иоганна Себастьяна и Филиппа Эммануила Баха, а также Гайдна, достигает глубины и силы драматической выразительности, близкой к бетховенской патетике. Музыка Моцарта положительно влияет абсолютно на каждого школьника, повышая их умственные и творческие способности. Поэтому использование произведений Моцарта в музыкальном воспитании школьников имеет огромное значение.

## İMPORTANCE AND WAYS OF USİNG MUSİC FROM V.A.MOZARTS PİANO WORKS İN MUSİC EDUCATİON OF SCHOOLCHILDREN

***Hesenova Saida Zahid***

***Summury***

The sonatas, variations, rondo and fantasies written in the first half of the 80s stand out in Mozart's clavier work. Mozart, creatively developing the traditions of Johann Sebastian and Philip Emanuel Bach, as well as Haydn, reaches the depth and power of dramatic expressiveness, close to Beethoven's pathos in these works. Mozart's music has a positive effect on absolutely every student, increasing their mental abilities and developing creatively. The use of Mozart's works in the musical education of schoolchildren is of great importance.

***Rəyçi: GDU-nun “Musiqi fənləri” kafedrasının müdiri, prof. S.Qurbanaliyeva***
***“Musiqi fənləri” kafedrasının 11.03.2021-ci il tarixli iclasının 09 saylı protokolu***
***Daxil olduğu tarix 24aprel 2021-ci il***